**Abdullayeva Mahirə**[1]

# İBTİDAİ TƏHSİL SƏVİYYƏSİNDƏ MORFOLOGİYANIN TƏDRİSİNİN METODİK ƏSASLARI

İbtidai siniflərdə morfologiyanın ən mühüm məfhumlarından olan nitq hissələrinin tədrisinə də savadlı yazı və danışıq mədəniyyətinin formalaşdırılması baxımından yanaşmaq, ana dili təliminin əsas prinsipi olan nitq inkişafı nəzəriyyəsinə əsaslanmaq lazımdır.

"Azərbaycan dili fənni elmdir. Öyrədilmək üçün tədqiq olunmaq üçündür. Azərbaycan dilçiliyi deyildir. Dilçilik ayrə bir fənndir. Azərbaycan dili – dil qaydaları, normaları əsasında danışmağı, yazmağı öyrədən fənnə deyilir. Bu fənnin məzmununa bu dildə dinləməyi, habelə oxumağı, yazmağı və nə üçün məhz bu şəkildə oxumağın, yazmağın düzgün olduğunu bilmək tələb olunur" (7, s.3).

Azərbaycan dili təliminin bu cəhətini nəzərdə tutan Y.Kərimov "İbtidai siniflərdə qrammatikanın tədrisi sadə olmaqla praktik xarakter daşıyır və qarşısına şagirdlərə bitkin elmi biliklər vermək məqsədi qoymur. Lakin bu ilkin kurs şagirdləri dilimizin qrammatik quruluşu ilə tanış edir, onları sistematik qrammatika kursunu mənimsəməyə hazırlayır. Ona görə də müəllim həmişə elmin sistemini gözləməli, dil hadisələrinin mahiyyətini, işlənmə dairəsini, qrammatikaya əsaslanmağın əhəmiyyətini başa salmalıdır" (5, s. 262).

İbtidai siniflərdə praktik əhəmiyyət daşıyan nitq hissələrini də şagirdlər sadə elmi dildə mənimsəyir, nitq prosesində dil vahidlərindən məqamına uyğun istifadə etməyi öyrənirlər. Dil təlimi praktik səciyyə daşısa da, şagirdlər müəyyən tərif və qaydaları, nitq hissələrinə məxsus səciyyəvi əlamətləri və hər bir nitq hissəsi üzrə qrammatik vasitələri şüurlu mənimsəyir, yazılı və şifahi təcrübələrini ədəbi notmalara uyğun ifadə etməyə çalışırlar. Şüurlu təlim yolu ilə şagirdlər oxşar dil faktlarını müqayisə edir, onlar arasında ümumi əlaqələri müəyyənləşdirir, ümumiləşdirmə aparır, məntiqi nəticələrə gəlirlər ki, bütün bu proses onların mücərrəd təfəkkürünün inkişafına səbəb olur. İbtidai siniflərdə nitq hissələrinin tədrisi də bu prinsipə uyğun təşkil olunub. Şagird sözün morfoloji quruluşunu, nitq hissələrinə məxsus şəkilçilərinin xüsusiyyətlərini, nitq hissələrinin leksik-semantik əlamətlərini, onların cümlədə rolunu elmi-praktik şəkildə mənimsəməklə yazı və tələffüz üçün düzgün istiqamət götürür. Buna görə də nitq hissələrinin tədrisinə bir-birindən təcrid olunmuş dil faktları kimi deyil, bütöv motfoloji sistemin öyrədfilməsi şəklində yanaşmaq, dil bölmələrinin əlaqəli tədrisini təmin edən vasitələrindən səmərəli istifadə etmək lazımdır.

İbtidai siniflərdə Azərbaycan dilinə ayrılan təlim saatlarının bir qismi morfologiya kursunun öyrədilməsinə sərf olunur. Şagirdlərin morfoloji biliklərinin səviyyəsi qoyulan tələblərdən çox asılıdır. Bunun əsas tələblərindən biri də ibtidai siniflərdə nitq hissələrinin öyrədilməsi, xüsusilə onların əlaqəli tədrisinə dair metodik ədəbiyyatın azlığıdır. Nitq hissələrinin tədrisinə orfoqrafiya, orfoepiya istiqamətlərindən yanaşılarsa da onların əlaqəli tədrisinə dair metodik tədqiqatlar kifayət qədər deyil. Nitq hissələrinin əlaqəli tədrisini ibtidai siniflər üçün aktual problem kimi tədqiq etməyi zəruri hesab edirik.

Morfologiyanın tədrisində nitq hissələri barədə məlumatların şagirdlərə verilməsində biliklərin elmi-praktik cəhətdən aşılanması məhz uşaqların fəallığını artırar. II-IV sinif şagirdlərində nitq hissələri üzrə bliklər verməklə dil vahidlərindən nitq prosesində geniş istifadə bacarıqları yaratmaq məsələsi əsas götürülməlidir. Nitq hissələrinin metodoloji əsasını dilçi-metodistlərimizin "Azərbaycan dilinin tədrisinə dair elmi, elmi-metodik mülahizələri təşkil edir.

Şagirdlərdə morfoloji anlayışların oxşar və fərqli xüsusiyyətləri zəminində yaradılması qrammatik materialların şüurlu, əhatəli mənimsənilməsini təmin edər və uşaqlarda nitq prosesində onlardan effektli istifadə üçün optimal şərait yaratmaqla, söz qruplarına dair davamlı biliklərin formalaşdırılmasına da zəmin yaratmış olar. "Sözlər yaranır, konkret səs tərkibi, leksik mənası ilə yaşayır, anlaşılır, uzun müddət ünsiyyətə xidmət edir" (1, s.14).

Nitq hissələrinin tədrisində məqsəd, nitq inkişafı nəzəriyyəsində yeni mövcud tələblər baxımından dəqiqləşdirilmiş, bəzi əlaqə mülahizələrlə genişləndirilmiş şəkildə şagirdlərə aşılanmaqdan ibarətdir. Bundan başqa, nitq hissələrinə məxsus qrammatik əlamətlər şagirdlərə ayrı-ayrılıqda və bir-biri ilə müqayisəli şəkildə təhlil edilməklə öyrədilməlidir. Şagirdlər "İsim" terminini III sinifdə eşitsələr də, əşya bildirən sözlərlə hələ savad təlimi dövründə oxu və yazının öyrədilməsi zamanı tanış olurlar. Bu dövrdə cins-növ münasibətləri üzrə aparılan məntiqi çalışmalarda şagirdlər müxtəlif əşyaların adənə bildirən sözləri qruplaşdırır, onları sadalayırlar. Bu yolla şagirdlərdə əşya, əlamət, miqdar bildirən sözlər kimi qrammatik əşyaları mənimsəməyə hazırlıq işləri aparılır. "Nitq praktikasında əşya adı altında gözlə görülən şeylər, ilk növbədə cansız əşyalar nəzərdə tutulur. Bu da adi danışıqda şey (ərəbcə əşya) anlayışına uyğun gəlir" (8, s.370).

II sinifdən başlayaraq şagirdlər "Əşyanın adını bildirən sözlər" məfhumunu eşidir. Burada dil qaydaları olaraq "Ad bildirən sözlər", "Ad bildirən bəzi sözlərin böyük hərflə yazılması", "Əlamət bildirən sözlər", "Hərəkət bildirən sözlər" başlıqları altında nitq hissələri ilə sadə və praktik şəkildə tanışlıq başlayır (2, s.66-93).

III sinifdə "Əşyanın adını bildirən sözlər" məfhumu isim termini ilə əvəz olunur. Burada "İsim – ad bildirən sözlər", "Xüsusi isimlərin böyük hərflə yazılışı", "Sifət - əlamət bildirən sözlər", " Say- miqdar və sıra bildirən sözlər", "Feil – hərəkət bildirən sözlər", "Feilin zamana görə dəyişməsi", " Feilin şəxsə görə dəyişməsi" və s. başlıqlar altında nitq hissələri haqqında məlumatlar şagirdlərə təqdim olunur (3, s.92-116).

IV sinifdə isə ismin və digər nitq hissələrinin leksik və qrammatik mənası, bu qrupa daxil olan sözlər real nitq təcrübəsi zəminində öyrədilir. Məsələn: "Nitq hissələri", "Zərf", "Zərfin mənaca növləri", "Köməkçi nitq hissələri", "Bağlayıcı", "Qoşma", "Köməkçi nitq hissələrinin omonimliyi" kimi mövzular təqdim olunmuşdur (4, s 39-81).

---

[1]ADPU, pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim

İbtidai sinif dərsliklərindən məlum olur ki, əşya ilə bağlı olan isim, sifət, feil kimi nitq hissələrinin pillələlik prinsipi üzrə bir-neçə tədris ilinə öyrədilməsi nəzərdə tutulmuşdur. Bu məlumatlar bir-birinin mexaniki təkrarı deyil və hər dəfə əvvəlki biliklərə əsaslanmaqla ismin və ya sifətin bir qrammatik mənası başa salınır, praktik nitq vərdişləri səviyyəsində mənimsədilir. Bu zaman şagirdlərin yaş və bilik dairəsi nəzərə alınaraq dil təlimi pillələlik prinsipinə uyğunlaşdırılır. "Elmi-didaktik düşüncəyə görə I-IV siniflərdə "Azərbaycan dili" adlandırılan fənn əlifbadan, hüsnxətdən, oxudan-qiraət materiallarından və dil qaydalarından toplananları nizamlayan, qaydaya salan, bütövləşdirən və ya inteqrasiya edən ana dili fənnidir" (6, s.7).

İstər ali, istərsə də ümumtəhsil məktəblərində nitq hissələrinin ğyrədilməsinə ismin tədrisindən başlanılır. Çünki isim bir tərəfdən maddi və mənəvi varlıqların adlarını özündə əks etdirir, digər tərəfdən isə sifət, say, feil kimi nitq hissələri isim ətrafında cəmləşir, onu bu və ya digər cəhətdən izah edir. Belə ki, sifət isimdəki əlaməti, say miqdarı, feil isə hərəkəti isimlə bağlı izah edir. Əslində dildə ismin varlığı digər nitq hissələrinin də mövcudluğunu əsaslandırır və bu, qismən əsas qrammatik mənasıdır.

İbtidai siniflərdə ən geniş tədris olunan nitq hissələri isim, sifət və feillərdir. Hər üç nitq hissəsi II, III, IV siniflərdə sadədən mürəkkəbə prinsipinə uyğun tədris olunur. IV sinifdə say, əvəzlik və zərfin bir sıra səciyyəvi xüsusiyyətlərinin tədrisi nəzərdə tutulur. Təlim saatlarının əksəriyyətinin isim, sifət, və feilə ayrılmasının elmi-metodik əsasları mövcuddur. Çünki dildə əşya, əşyaya məxsus əlamət və hərəkəti ifadə edən sözlər digər leksik vahidlərə nisbətən sayca çoxluq təşkil edir və ünsiyyətin təşkilində həmin qrupa daxil olan sözlər aparıcı mövqeyə dayanır.

Nəticə olaraq deyə bilərik ki, nitq hissələri arasındakı əlaqənin yollarını müəyyənləşdirərkən həmişə onların bir-birinə mqnasibəti, faktların və leksik-qrammatik vasitələrin oxşarlığı nəzərə alınmalı, onlar müqayisəli öyrədilməlidir. Bunsuz şagirdlərdə qrammatik ümumiləşdirmə bacarığı yaratmaq olmaz. Çünki, nitq hissələrinə məxsus əlamətlərin tək-tək məfhumlar şəklində tədrisi davamlı və praktik bilik yarada bilməz. Əksər morfoloji vasitələr müztəlif söz qrupları üzrə vəhdətdə öyrədildikdə şagirdlərin qrammatik təfəkküründə onlar daha yaxşı möhkəmlənir, şagirdlər nitq praktikasında onlardan daha səmərəli istifadə edirlər.

İbtidai siniflərdə Azərbaycan dilinin düzgün elmi-metodik əsaslarla tədrisi həm dilimizin qrammatikasının öyrənilməsinə, həm də digər təlim fənlərinin mənimsənilməsinə zəmin yaradır. Şagirdin mənimsədiyi bütün elmi çülahizələr söz şəklində olduğu üçün ana dilinin mənimsənilmə səviyyəsi digər fənlərin səviyyəsini də müəyyənləşdirir və bu dilin mərkəzi təlim fənni olması bu prinsiplərlə müəyyənləşir. Ona görə də həm bu amuili, həm də Azərbaycan dilinin həqiqi dövlət dili kimi işlənmə dairəsi, təlim-tərbiyəvi əhəmiyyəti nəzərə alınaraq ana dilinin müztəlif problemləri üzrə tədqiqatlar aparmaq, istifadə olunan üsul və vasitələr sistemini daim təkmilləşdirmək lazımdır.

**Ədəbiyyat**


1. Abbasov İ. "Dil sevgisindən dilçiliyə", Elm və təhsil", Bakı, 2017, 325 s.
2. İsmayılov R., Orucov G., Xəlilov Z., Cəfərova D. Ümumtəhsil məktəblərinin II sinifləri üçün "Azərbaycan dili" dərsliyi, "Altun kitab", Bakı, 2018, 146 s.
3. İsmayılov R., Orucov G., Xəlilov Z., Cəfərova D. Ümumtəhsil məktəblərinin III sinifləri üçün "Azərbaycan dili" dərsliyi, "Altun kitab", Bakı, 2019, 226 s.
4. İsmayılov R., Orucov G., Xəlilov Z., Cəfərova D. Ümumtəhsil məktəblərinin II sinifləri üçün "Azərbaycan dili" dərsliyi, "Altun kitab", Bakı, 2018, 146 s.
5. İsmayılov R., Orucov G., Abdullayeva S., Cəfərova D., Qasımova X., Ümumtəhsil məktəblərinin IV sinifləri üçün "Azərbaycan dili" dərsliyi, "Altun kitab", Bakı, 2019, 223 s.
6. Kərimov Y. "İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası", Nasir, Bakı, 2013, 519 s.
7. Qurbanov V." Oxu və nitq inkişafi təlimi", "Müəllim", Bakı, 2021, 126 s.
8. Nəbiyeva Ş., Abdullayeva G., Kərimova A. "İbtidai siniflərdə ana dilinin tədrisi metodikası fənnindən mühazirələr", "Elm və təhsil". Bakı, 2015, 520 s.


## XÜLASƏ


Məqalədə ibtidai siniflərdə "Azərbaycan dili" fənninin vasitəsilə şagirdlərə dil qaydalarının öyrədilməsindən söhbət açılır. Əsasən də burada nitq hissələrinin tədrisinin metodik əsasları təhlilə cəlb olunmuşdur. II-IV siniflərdə nitq hissələri haqqında məlumatların şagirdlərə həm sadə, həm də praktik çəkildə hansı başlıqlar altında verildiyi barədə məlumatlar öz əksini tapmışdır. Həm şifahi, həm də yazılı nitqin inkişafında böyük əhəmiyyət kəsb edən nitq hissələrinin tədrisinin sadədən çətinə istiqamətində öyrədilməsinin əhəmiyyəti də vurğulanmışdır.

İbtidai siniflərdə nitq hissələrinin öyrədilməsi zamanı sistemliliyə fikir verilməsi diqqətə çatdırılır. Öyrənilən hər bir məfhum, hər bir qaydanın istər şifahi, istərsə də yazılı nitqdə şagirdlərin yerində işlədə bilmələrinin vacibliyi göstərilir. Danışıq və yazı prosesində dil vahidlərindən məqamına uyğun istifadə etməyin əhəmiyyəti baxımından da nitq hissələrinin tədrisinin səmərəliliyi vurğulanmışdır.



**Açar sözlər:** Azərbaycan dili, nitq hissələri, ibtidai sinif, şagird, morfologiya.


**Методические основы обучения морфологии на этапе начального образования**

РЕЗЮМЕ


В статье рассматривается преподавание языковых правил учащимся начальных классов через предмет «Азербайджанский язык». В основном здесь анализируются методические основы обучения частям речи. Отражены сведения о рубриках, в рамках которых учащимся II-IV классов дается информация о частях речи как в простом, так и в практическом плане. Также была подчеркнута важность обучения частям речи, которые имеют большое значение в развитии как устной, так и письменной речи, от простой к сложной.

При обучении частям речи в начальных классах важно уделять внимание системности. Подчеркивается важность умения студентов применять каждую изученную концепцию и правило как в устной, так и в

письменной речи. Эффективность обучения частям речи также подчеркивалась с точки зрения важности правильного использования языковых единиц в процессе говорения и письма.
**Ключевые слова:** азербайджанский язык, части речи, начальная школа, ученик, морфология.

**Methodological foundations of morphology training at the stage of primary education**

SUMMARY

In the article, the teaching of language rules to elementary school students through the subject "Azerbaijani language" is considered. Basically, the methodical foundations of teaching parts of speech are analyzed here. Information about the rubrics, within which students of II-IV classes are given information about the parts of speech both in simple and practical terms, is reflected. Also, the importance of learning parts of speech, which are of great importance in the development of both oral and written speech, from simple to complex, was also emphasized.

When teaching parts of speech in primary classes, it is important to pay attention to systematicity. The importance of students' ability to apply each learned concept and rule both orally and in writing is emphasized. The effectiveness of teaching parts of speech was also emphasized from the point of view of the importance of the correct use of language units in the process of speaking and writing.
**Keywords:** Azerbaijani language, parts of speech, elementary school, student, morphology.

**RƏYÇİ: dos. S.Abbasova**